# GÜNDOĞAR

QƏZET 1931 - Cİ İLDƏN ÇAP EDİLİR | NEFTÇALA RAYON QƏZETİ | 27 FEVRAL 2025 -Cİ İL, №2 (68076)


## Bakıda Azərbaycan-Pakistan biznes forumu



**Fevralın 24-də Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.İnanırıq ki, bütün imzalanmış sənədlər hər iki dövlət üçün uğurlu olacaqdır.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: *“...Bəzən bizim daha fəal biznes təmaslarımıza mane olan məsələ planlarımız, iqtisadi gündəliyimiz, infrastruktur layihələri ilə bağlı məlumatın olmamasıdır. Həmin boşluğu doldurmaq üçün bu cür toplantılar çox vacibdir. Çünki biznes-forum çərçivəsində müxtəlif təqdimatlar keçirilir, biznes imkanları təqdim edilir, hüquqi formatlar, vergi və gömrüklə bağlı məsələlər müzakirə olunur...”***

24 fevral tarixində Bakıda Azərbaycan -Pakistan biznes forumu keçirilmişdir.Forumda böyük şirkət nümayəndələri iştirak etmiş, ikitərəfli müzakirələr aparılmış, fəallığın artırılması istiqamətində görüşlərin keçirilməsi, enerji sahəsində əməkdaşlığın artırılması məsələləri müzakirə olunmuşdur. Forumda çıxış edən Pakistanın **Baş nazir Məhəmməd Şahbaz Şərif** bildirmişdir ki, “Bu gün biz mühüm bir nailiyyət əldə etmişik. Çox gözəl və məhsuldar görüşümüz oldu. Nümayəndə heyətləri öz aralarında görüşdülər. Biz bütün məsələləri müzakirə etdik və qərara gəldik ki, çox aydın bir fəaliyyət planımız olsun. Çox şadam ki, avqust ayında həm Pakistandan, həm də Azərbaycandan nümayəndələrin iştirak etdiyi bir tədbir təşkil ediləcək... Bu gün bəyan etmək istərdim ki, biz Azərbaycanda daimi İnformasiya Məlumat Bürosu təsis edəcəyik. Bu, hər bir avadanlıqla tam təchiz edilən bir mərkəz olacaq. Burada süni intellekt vasitəsilə də Pakistan haqqında hər bir məlumat təqdim ediləcək. Əminəm ki, çox səmərəli bir layihə olacaq. Mənim həmkarlarım buradadır, məni eşidirlər. Eyni zamanda, cənab Prezident, Siz də məsul şəxslər müəyyən edəcəksiniz və bu, güclü bir mexanizm olacaq. Sadəcə, bu, bir nümunədir və bizim səylərimizə çox böyük töhfə verəcək...”

## Bir MİLLƏT - iki DÖVLƏT!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.

Söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olundu.

## Prezident İlham Əliyev: “Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir. Bu faciə təcavüzkar erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir”.




# XOCALI FACİƏSİNİN 33-CÜ İLDÖNÜMÜ EHTİRAMLA YAD EDİLDİ





# UNUDULMAYAN YADDAŞ

XOCALI

Azadlığın şirin dadı hər bir xalqın yaddaşında ağrılı xatirələrlə tarixləşib. Azərbaycan xalqının da çoxəsirlik tarixində Xocalı kimi qədim tarixi olan bir şəhərin 26 fevral 1992-ci ildə olan şəhadəti heç zaman unudulmayan qan yaddaşımızdır.

1992-ci il Fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı moto-atıcı alayın iştirakı ilə Xocaı şəhərində dəhşətli qətliam törətməklə Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti aparmışdır. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətinə qeyd etmişdir: ***"Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".***

1992-ci il ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri Xocalı şəhərində soyqırımı aktı törətdilər. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər qətlə yetirildi, 1275 sakin girov götürüldü, 150 nəfərin taleyi isə bu günədək naməlum qalıb. Şəhər yerlə-yeksan edildi. Həmin faciəvi gecə zamanı 487 nəfər Xocalı sakini ciddi şəkildə şikəst edildi və onlardan 76 nəfəri uşaqlardan ibarət idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirdi. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla – diri-diri yandırılaraq, başının dərisi soyularaq, bədənu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürüldü.Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı şəhəri, sözün əsl mənasında, işğalın nəticəsində xarabalığa çevrildi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə **Xocalının Qəhrəman** oğulları bir addım da olsun geri çəkilməmiş və səhərə qədər düşmənlə qəhrəmancasına döyüşmüşlər. Onlar Xocalını qorumaq üçün son nəfəsə qədər fədakarlıqla döyüşüblər. Düşmənə göstərdikləri dönməzlik, cəsarət xalqımızın yaddaşında qəhrəman obrazlarını daim yaşadacaq. Xocalının düşmən əhatəsində olduğu o qorxunc gecədə şəhid olan Ələsgər Novruzovun, Əlif Hacıyevin, Tofiq Hüseynovun, Aqil Quliyevin, Hikmət Nəzərlinin,Füzuli Rüstəmovun, Bahadur Səlimovun adları xalqımızın mübarizlik salnaməsində qəhrəman əsgər, vətənsevər oğul kimi qalacaqdır. Xocalı əsirlərinin azad edilməsində fədakarlıqla çalışan qəhrəman oğullardan biri də Allahverdi Bağırov idi. 1992 -ci ilin fevralında Xocalı faciəsi zamanı Allahverdi Bağırovun batalyonu Əsgəran yaxınlığında yüzlərlə xocalılını xilas edib. 1992 - ci il iyun ayının 12-də onun batalyonunun səyi nəticəsində Aranzəmin, Naxçıvanik, Dəhraz, Mirkənd, Pircamal kəndləri düşməndən azad edilib. Özü isə gözətçi məntəqələrini yoxlayıb qərargaha dönərkən sürücü ilə birlikdə minaya düşüb.

Ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər Heydər Əliyev hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zərurliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. **Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmişdir.** Bu faciəni xalqımızın böyük dərdi, kədəri, qəmi adlandırmış Ümummilli liderimiz, eyni zamanda, xalqımızın əsrlər boyu keçdiyi mübarizəni, milli azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir. **Ulu Öndər Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı** ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il **fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir.**

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işləri xüsusi minnətdarlıq hissi ilə qeyd etmək lazımdır. Məhz fondun gərgin fəaliyyəti nəticəsində əvvəlki illərdən fərqli olaraq indi dünya ölkələri erməni qəsbkarlarının törətdiyi insanlığa sığmayan Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyir. Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər çərçivəsində Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən **"Xocalıya ədalət!"** beynəlxalq kampaniyası da səmərəli nəticələr verir. Kampaniya çərçivəsində Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar təqdim olunur.

Öz tarixini unutmayan xalqımız bu faciəni heç zaman unutmayacaqdır. Ölkə rəhbərinin qeyd etdiyi kimi "Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir". Bu cinayəti törədənlər isə öz layiqli cəzalarını alacaqlar. Onlardan bəziləri Vətən müharibəsində məhv edilsə də, digərləri Azərbaycan ordusu tərəfindən tərkisilah edilərək həbs edilmişlər.

Bu gün xalqımızın öz ocağına olan doğma münasibəti insanlıq adını tanımayan bu qatillərə ən böyük dərsdir.

Faciədən 33 il keçsə də bu gün hər bir Azərbaycan vətəndaşı Xocalı şəhidlərinin əziz xatirəsini ehtiramla yad edir, onların ruhu qarşısında baş əyir. Və inanırıq ki, cəsur Vətən oğullarının qorxmazlığı, Ali Baş Komandan cənab İlham Əliyevin səbir və qətiyyətlə həyata keçirdiyi siyasəti nəticəsində qazandığımız qələbə Xocalıda, eləcə də bütün Azərbaycan torpaqlarında vəhşi düşmən tərəfindən qətliama məruz qalan, şəhadətə ucalan əziz soydaşlarımızın ruhuna məlhəm olacaqdır. Allah şəhidlərimizi rəhmət eləsin.

## HƏYAT VERƏK TORPAĞINA, MƏLHƏM OLAQ OCAĞINA... QƏHRƏMAN ŞƏHƏRİM, XOCALIM!

İşğaldan azad edilən ərazilərimizin hər birində bərpa-quruculuq işləri geniş vüsət almaqdadır.Yüksələn vətən adı hər birimizin ürəyində fərəh yaradır. Bu yolda can fəda edən şəhid oğulların məkanı behişt olsun. Vətən onu sevənlər var olduqca yaşayar. Bu ərazilərdə yeni şəhərlər, qəsəbə və kəndlər bərpa olunduqca öz ocağından ayrı düşən, illərlə vətən həsrəti, intizarı yaşayan soydaşlarımız böyük qürur hissi ilə öz ocaqlarına qayıdırlar. Və belə şəhərlərimizdən, ərazilərimizdən biri də Xocalı şəhəridir. "Gündoğar" qəzeti "Report"a istinadən xəbər verir ki, respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanında yer alan ümumilikdə 28 ailə (135 nəfər) öz ata-baba yurdlarına qayıdıb. 15 yanvar tarixinə verilən məlumata əsasən indiyə qədər Şuşa şəhərinə 371 ailə (1396 nəfər), Xocalı şəhərinə 52 ailə (204 nəfər), Xocalı rayonunun Ballıca kəndinə isə 68 ailə (373 nəfər) köçürülüb. Xocalıya ilkin mərhələdə 20 ailə köçürülmüşdür. Sakinlərin sevinci yerə-göyə sığmırdı. Əlbəttə ki, ötən illərin unudulmayan ağrılı xatirələri də könüllərdə əbədi qalacaqdır. Ölkə rəhbəri, cənab Prezident İlham Əliyev xocalıların öz ocaqlarına qayıtması haqqında deyirdi: ***"Mən xocalılarla dəfələrlə işğal dövründə görüşmüşdüm. Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi.Təbrik edirəm Sizi, can sağlığı arzu edirəm".***

İşğaldan azad edilən, 2023-cü ildə 15 oktyabr tarixində cənab Prezident tərəfindən Azərbaycan bayrağı ucaldılan Xocalıda böyük quruculuq işləri həyata keçmişdir və davam etməkdədir. Xocalıya **ilk köç 2024 - cü ildə, Müstəqillik Günü - 28 May tarixində həyata keçdi.** Xocalıya köçən soydaşlarımıza, Xocalının əsl sahiblərinə cənab Prezident evlərinin açarlarını təqdim etmişdir. Mayın 28 - də Xocalı şəhərinə 20 ailə (81 nəfər), mayın 29 – da isə yenə 24 ailə ( 88 nəfər) köçmüşdür. Xocalıda 140 – a yaxın fərdi yaşayış evi, 48 kottec tipli ev, 9 bina tikilmişdir. Səkkiz ay müddətində aparılan quruculuq işləri nəticəsində şəhərin siması yenilənmiş, canlanmış, Xocalıya yeni ruh gəlmişdir. Burada 9 binada ümumilikdə 110 mənzildə tikinti işləri həyata keçmişdir. Ərazidə bütün kommunikasiya xətləri, deyə bilərik ki, işıq, qaz, su, rabitə yer altına salınıb. Bu işlər 90 % yerinə yetirilmişdir. Eyni zamanda quruculuq davam edir. Gələcəkdə çay kənarında Bulvar da salınacaqdır. Burada uşaq bağçası, məktəb, müxtəlif tikiş sexi, idman kompleksi, taxta sexi, dulusçuluq, istirahət parkı və s. istifadəyə verilmişdir. 2024 – cü ilin 26 fevral tarixində ölkə rəhbəri tərəfindən Xocalı Soyqırım Memorialının təməli qoyulmuşdur. Gələcəkdə də Xocalının Baş planına uyğun olaraq quruculuq işləri davam edəcəkdir.Cənab Prezident İlham Əliyev təməlqoyma mərasimində demişdir: ***"…Biz Xocalısız ərazi bötövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik…"***



*Ballıca kənd sakinləri ilə görüşündə isə cənab Prezident bildirmişdir ki, "Artıq Ballıca kəndi 10-cü yaşayış məntəqəsidir ki, işğaldan sonra biz bu kəndi də bərpa etdik. Verilən məlumata görə artıq 460 nəfər keçmiş köçkün burada yerləşib. 137 ev bərpa edilib və əlavə 60-a yaxın ev də bərpa ediləcək. 460 insan artıq bu kənddə yerləşib, şərait də yaxşıdır, bərpa edilib, yenidən tikilib. Burada rahat yaşamaq üçün bütün şərait və imkanlar var. Bildiyiniz kimi Ballıca kəndini biz 2023-cü ildə azad etdik. Torpaqlarımızın azad edilməsi işləri mərhələli yollarla həyata keçirilmişdir...*

*Əsas odur ki, tikinti - bərpa işləri sürətlə getsin. Onun üçün də bütün gücümüzü bərpa etmişik..."*

*İşğaldan azad edilən bütün ərazilərimizə, o cümlədən Xocalıya da köç edən soydaşlarımıza can sağlığı, xoş günlər diləyirik.*

***B.Niftaliyeva***

# ŞƏRƏFLİ PEŞƏNİZDƏ UĞURLAR DİLƏYİRİK



**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "DÜNYADA ƏN ŞƏRƏFLİ PEŞƏ VƏTƏNİ, TORPAĞI, DÖVLƏTİ QORUMAQ PEŞƏSİDİR!"**

**Neftçala rayonunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin işçilərinin peşə bayramı qeyd olunub.13 fevral 2025-ci ildə ölkəmizin hərb quruculuğuna öz töhfəsini verən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 13 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 fevral 2012-ci il tarixli fərmanı ilə yaradılan Dövlət Xidməti yaradıldığı gündən fəaliyyət istiqamətinə uyğun olaraq səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, eyni zamanda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, xidmətin daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə müvəffəqiyyətlər qazanıb.**

**Peşə bayramı ilə əlaqədar olaraq, Neftçala şəhərinin mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli heykəli ziyarət olunub, önünə tər gül dəstələri düzülüb və ruhu ehtiramla yad edilib.**

**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala Rayon Şöbəsinin rəhbərliyi, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala Rayon Şöbəsinin əməkdaşları iştirak ediblər.**

**"Gündoğar" qəzeti də bütün oxucuları adından Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala Rayon Şöbəsinin əməkdaşlarını peşə bayramları münasibətilə təbrik edir və fəaliyyətlərində uğurlar arzulayır.**

# BU ÇOX ƏHƏMİYYƏTLİ OLACAQDIR



**Rayonumuz üçün çox əhəmiyyətli olacaq günəş elektrik stansiyasının tikintisi artıq başlamaq üzrədir. Elə bu mövzuda yaxın günlərdə - fevral ayının 10-da Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkətinin nümayəndə heyəti ilə növbəti görüş keçirildi.**

**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun rəhbərliyi və "Masdar" şirkətinin biznesin idarə olunması departamentinin meneceri Amr Usamanın, proqramın meneceri Fernando Villianuevanın, nümayəndə heyətinin və podratçı təşkilatların nümayəndələrinin iştirakı ilə Neftçala rayonunun inzibati ərazisində bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 973 hektar ərazidə inşa ediləcək 315 MVt gücündə günəş elektrik stansiyasının tikinti layihəsi ilə bağlı işgüzar görüş keçirildi.**

**Görüş zamanı günəş elektrik stansiyasının tikintisi layihəsi çərçivəsində onları maraqlandıran fikirlər səsləndirilmiş, tikinti işlərinə cəlb olunacaq işçilərin sosial statusu, işsizliyin aradan qaldırılması, tikinti işləri zamanı mövcud infrastrukturdan istifadə amilləri ətraflı öyrənilmiş, sual doğuran fikirlərə aydınlıq gətirilmiş, fikir mübadiləsi aparılmışdır.**

**İnanırıq ki, neçə-neçə insanların da işlə təmin olunacağı bu layihə rayonumuz üçün çox əhəmiyyətli olacaqdır.**

# *Səyyar görüşlər bütün sosial qrupları əhatə edir*



Neftçala rayonunda fevral ayında da əhali ilə keçirilən səyyar görüşlər davam etmişdir. Ay ərzində rayonun Aşağı Surra, 1- ci Mayak və Sübh, Qaraqaşlı, Xolqarabucaq kəndlərində əhali ilə görüşlər təşkil olunmuşdur. Görüşlərdə **"Mehriban xanım Əliyevanın fəaliyyəti milli və mədəni, eyni zamanda bəşəri dəyərlərə sadiqlik nümunəsidir", "Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb","Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, regionda sabitliyi şərtləndirən vacib amillərdəndir"** mövzusunda görüş iştirakçılarına məlumat verilmişdir. Səyyar görüşlərdə əhalini narahat edən bəzi çətinliklərin, o cümlədən özünəməşğulluq proqramına qoşulma, kənddaxili yolun təmiri, suvarma kanalının lildən təmizlənməsi və digər məsələlərlə bağlı məlumat verilmiş, əlaqədar təşkilatların bu istiqamətdə tövsiyələri diqqətə çatdırılmışdır. Görüşdə iştirak edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov istər ölkəmizdə, istərsə də Azərbaycanımızın bir parçası olan doğma rayonumuzda görülən işlərdən danışmış, bu istiqamətdə gələcəkdə də dəyərli layihələrin davam edəcəyini vurğulamışdır.

Görüş iştrakçıları sonda ölkə rəhbərinə və rayonun məsul işçilərinə minnətdarlıq bildirərək səyyar görüşlərin müntəzəm keçirildiyi üçün rayon rəhbərinə təşəkkür ediblər.

# "AZƏRİŞIQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ - 10



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamına əsasən "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti adlandırılmasının 10 illik yubileyi Neftçala rayonunda qeyd olunub.**

**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısının müavini Şaiq Məmmədov, Azərişıq ASC-nin Şirvan RETSİ-nin Neftçala EŞ-in rəisi Ağababa Babayev, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev və Neftçala EŞ-in kollektivi iştirak edib.**

**İlk olaraq Ulu Öndər Heydər Əliyevin Neftçala şəhərində ucaldılan əzəmətli heykəli və Şəhidlər Abidə Kompleksi ziyarət olunub, önünə tər gül dəstələri düzülüb və ehtiramla yad edilib.**

**Tədbirdə çıxış edən Şaiq Məmmədov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun təbriklərini kollektivə çatdırıb və onların enerji təminatı sahəsindəki zəhmətlərini qeyd edib, çətin və məsuliyyətli işlərində uğurlar arzulayıb.**

**Tədbirin sonunda zəhmətkeş Neftçala EŞ-in kollektivi ilə xatirə şəkli çəkilib.**

# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI XANOĞLAN SADİQ OĞLU MƏMMƏDOV - 50

Qəhrəmanlar unudulmazdır. Bu unudulmazlıq vətən tarixində elə bir ucalıqdır ki, onun səsi, sorağı zamanın sərt sınaqlarından mərdi-mərdanə çıxır. Heç bir xəzan yeli dəyişə bilmir bu izləri. Çünki bu bizim qan yaddaşımız, harayımız, yurdumuzun xoşbəxt günləri uğrunda apardığımız mübarizədir, əzmdir, mətanət, rəşadətdir.

Bu mübarizə sənin kimliyindir. Bu sənin soyundur, kökündür. Üzərində ayaq açıb gəzdiyin torpağın nəfəsidir. O torpağın nəfəsində yaşayan Şəhid oğulların sədaqəti, cəsarəti, vətəninə, torpağına övlad borcudur.

Bəli, övladlıq borcu. Bu vəzifəni damarlarında axan qanı ilə, bütün ruhu, canı ilə hiss edirdi Xanoğlan Məmmədov.

Rayonumuzun üc Milli Qəhrəmanından ikincisi olan Xanoğlan Sadiq oğlu Məmmədov da vətəninə bağlı, öz dövlətini sevən, xalqına təmiz qəlbi ilə xidmət edən bir oğul idi. Ömrünün 20-ci baharında ucalmışdı qəhrəmanlıq zirvəsinə. Nə idi onu ucaldan? Əlbəttə ki, öz elinə, yurduna sevgisi, bağlılığı.

Həyatda insanı ucaldan ocaq sevgisidir, doğulduğu torpağa bağlılığıdır.Bu sevgi hər kəsin qəlbində alovlana bilməsə də, tarixin amansız sınaqlarından çıxan elə mərd oğullar doğulmuşdur ki, -...Şah babamız,bütün dünya tarixində adı möhtəşəmlik, cəsarət rəmzi olan Şah İsmayıl Xətai kimi 14 yaşında - tarixin səhifələrində misilsiz şücaət rəmzi olmuşdur.Onların Qəhrəmanlıq yolunun arzulanan sorağı, vüqarlı səsi idi xələflərinin rəşadəti. Və belə cəsarətli, qorxmaz oğullardan biri də haqqında söhbət açacağımız, 20 yaşında Qəhrəmanlığa ucalan, bu gün isə 2025 - ci ildə 50 yaşını qeyd etdiyimiz Xanoğlan Məmmədovdur.

Xanoğlan Məmmədov 1975-ci il fevral ayının 13-də Kür çayının sahilində, Neftçala rayon Beştalı kəndində andan olmuşdur. Uşaqlığı kənd həyatının şirinliyində bərkimiş, yeniyetməlik dövründə həyatı "öyrənmək" yolundan uğurla keçmişdir. İlk təhsilini kənd orta məktəbində aldıqdan sonra səkkizinci sinfi bitirib Salyan rayonunda Texniki peşə mətəbinə daxil olur. Burada dülgərlik peşəsini öyrənən Xanoğlan 1993-cü ildə hərbi xidmətə yola düşür. Hərbi xidmət borcunu bir müddət Pirküşküldə, daha sonra təlim kurslarında iştirak edərək Murovdağda yerinə yetirir.

1995-ci ilin mart ayında Xanoğlan Məmmədov və onun xidmət etdiyi hərbi hissə dövlət əleyhinə qalxmış bir qrup üsyançının zərərsizləşdirilməsi üçün mübarizəyə qoşulur. Bu döyüşdə -17 mart 1995-ci ildə Xanoğlan Məmmədov öz vəzifə borcunu yerinə yetirərkən qəhrəmanlıqla şəhid olur. Bu acı tarix səhifələrini vərəqlədikcə insanın bağrı yanmırmı? Bu qədər baş verən qanlı hadisələri necə daşısın yorğun tarixim?... Ağırdır, ağrılıdır, yaralıdır torpağım...

*Heyif dedim ... Şəhidimə, şairimə,*
*Öz yurdunu göz dolusu seyr etməyən hər igidə...*

Ömrünün 20 - ci baharında,
qəhrəmanlıq sorağı yayılır
Xanoğlanın...Və doğulduğu Neftçala
rayon Beştalı kəndində də Vətən
torpağına qovuşur. Elə həmin ildə

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995 - ci il tarixli 307 saylı fərmanı ilə Məmmədov Xanoğlan Sadiq oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilir.**

Neftçala rayon Mədəniyyət Mərkəzi Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədovun adını daşıyır. Ruhu şad olsun. Unudulmazlar sırasındadır.

**Qəhrəmanımızın əziz xatirəsinə...**

*Söyləyim bayatı, çağlasın Kürüm.*
*Neçə oğulların qanıdır torpaq.*
*Yurdu sevənlərin əbədi adı*
*Hər günəş çıxanda verəcək soraq.*



*Qəhrəman oğullar böyüyür eldə,*
*Analar səngərim oğuldu deyib.*
*Öz doğma ocağın sevən oğullar,*
*Vətəni namusu, canları bilib.*

*Xanoğlan şərəflə yazdı adını,*
*Qovuşdu torpağa qəhrəman kimi.*
*Anar, xatırlayar hər yeni nəsil,*
*Vüqarlı. qeyrətli bir əsgər kimi.*

*Mərdanə baxışı öyüd, nəsihət,*
*Cəsarət yolundur gəncliyə örnək.*
*Ömrün baharında qurdu*
*"İMARƏT",*
*Şərəfli qəsridir dincliyə kömək.*

**Bədirə Rza Həsənqızı,**
**"VƏTƏNSEVƏR" kitabı, 2020**

# QƏHRƏMANLAR ƏBƏDİYAŞARDIR!

**13 Fevral 2025 - ci ildə Salyan Peşə Liseyində Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş, Azərbaycanın Milli Qəhrəmanı, liseyin məzunu Xanoğlan Məmmədovun 50 illiyi münasibətilə əziz xatirəsi yad edilmişdir.**

Tədbirdə Qəhrəman vətən oğlunun anası və ailə üzvləri, rayonun tanınmış ziyalıları və Salyan Peşə liseyinin tələbələri iştirak etmişlər.

Tədbiri Salyan Peşə liseyinin direktoru Ruslan Fətullayev açmışdır. Öncə torpaqlarımızın azadlığı uğrunda şəhid olan fədakar oğulların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədov haqqında hazırlanmış video - çarxa baxış keçirilmiş, daha sonra Azərbaycan Yazıçılar Birliyinin Muğan Bölməsinin sədri Nəbi İbrahimov, Salyan Ziyalıları Birliyinin sədri Allahverdi Piriyev, Salyan Ağsaqqallar Şurasının sədri Məhəmməd Ağayev, tarixçi tədqiqatçı Sahib Həsənov, YAP Salyan rayon təşkilatının məsləhətçisi,Vətən müharibəsi iştirakçısı Yalçın Abdullazadə, Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Səidə Əliyeva, "Qələbə" qəzetinin əməkdaşı, şair Əzizağa Məmmədli və digərləri çıxış edərək Milli Qəhrəmanın keçdiyi şərəfli yoldan danışmışlar. Şəhidin ailə üzvləri adından Şəhrəbanu Əhmədova çıxış edərək tədbirin təşkili üçün minnətdarlığını bildirmişdir.



# QƏHRƏMAN ÖMRÜNÜN ƏZİZ XATİRƏSİ...

"Azərbaycan xalqı artıq öz dövlətçiliyini qiymətləndirməlidir, bunu anlamalıdır və bunun nə qədər böyük sərvət olduğunu bilməlidir". Ulu Öndər Heydər Əliyev bu sözləri mart qiyamı ilə bağlı demişdir. Xalqı dövlətçilik ənənələrinə dəyər verməyə, qiymət verməyə çağırmışdır.

Dövlətçilik ənənələrinin qorunmasında Ulu Öndərin ətrafında xalqın qədirbilən oğulları toplaşdı. Hansıki onlar dövlətçiliyimizin qorunmasını öz canlarından üstün tutdular. Belə igid oğullardan biri də Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədovdur. Xanoğlan elin-obanın, bir nəslin igid, zəhmətkeş balası idi. Ailəsi, doğmaları onun haqqında danışarkən nə qədər qorxmaz, əzmkar, zəhmətkeş olduğundan danışırlar. Bütün qohumlar Xanoğlan Məmmədov haqqında xatirələrində onun necə düzgün bir xasiyyətə, əxlaqa malik olduğunu qeyd edirlər.Qohumlar, qonşular harasa gedəndə evi, həyət-bacasını Xanoğlana tapşırır, ona etibar edirlərmiş. Hamı ən ağır işində, çətinliyi olanda ona müraciət edərmişlər. Heç vaxt da heç kimə yox deməyən Xanoğlanın bir sözü var imış: "Baş üstə!"



Deyirlər ki, Xanoğlan ov etməyi çox sevərmiş. Qardaşı Rəşid tüfəngini vermədiyindən Xanoğlan qardaşı işə gedən kimi tüfəngi gizlincə götürüb ova gedərmiş, hətta onun dovşan ətindən lüləkabab çəkdiyini də indiyə kimi xatırlayırlar. Göyərçin saxlamağı da var imış, çox sevərmiş onlara qulluq etməyi. *(Xanoğlandan sonra hamısı uçub gedib o quşların...)*

Onun haqqında danışanda deyirlər ki, maqnitofona qulaq asmaq ən çox sevdiyi məşğuliyyət imiş. Sinif yoldaşlarının xatirə dəftərinə ürək sözlərini yazanda şairlərdən ən çox B.Vahabzadə və S.Vurğunu sevdiyini qeyd edib. "Xoş gününüz olubmu?" sualına da "Hər gün"- deyə cavab verib. Ən çox sevdiyi rəngin sarı və yaşıl olduğunu yazıb. "Sevgi nədir?" sualına isə "əfsanəvi bir şey"- deyə cavab verib.

Xanoğlan Məmmədovun anası Südabə ana qeyd edir ki, Xanoğlan evdə ən zəhmətkeş övlad olub. Ən çətin işləri o görürmüş. Xanoğlanın atası oğlu üçün yer götürür, torpaq sahəsi alır ki, ev tiksin, yurd salsın. Amma yer bir qədər çökək imiş. Xanoğlan razı olmur ki, onun üçün tikilən ev çökəkdə olsun və başlayır günlərlə torpaq daşımağa. Nəhayət ki, həyəti istədiyi yüksəkliyə çatdırır. Xanoğlan şəhid olsa da, ailəsi o evi tikib bitirir və o evə köçüb yaşayır.

Xanoğlan çökəkdə olan
həyətini qaldırdığı kimi
dövlətçiliyimizi də qoruyub
yüksəltdi.

**RUHUN ŞAD OLSUN,**
**QƏHRƏMAN!**

**Şəhrəbanu ƏHMƏDOVA,**
**Neftçala rayon Cəbrayıl Əhmədov adına Cəngan kənd tam orta məktəbinin tarix müəllimi**

# EHTİRAMLA YAD EDİRİK. ŞƏHİD LEYTENANT ƏLİYAR ƏLƏKBƏROV - 60




Bizdən ayrı olanlara, Vətən üçün yananlara, candan əziz sananlara bir ehtiram borcumuz var. Daim oyaq olan ruhları sevinsin, şad olsun ki, hər addımında "Vətən!"- deyə bütün çətinliklərə tab gətirən, dözümü, vüqarı ilə dayanan, əzizlərinin gözlərini yolda qoyan ŞƏHİD ömrü unudulmur, xatırlanır, yad edilir...

O, fevral ayında doğulmuşdur, elə fevral ayında da şəhadətə ucaldı, vətən tarixində əbədiləşdi. Şəhid leytenant Əliyar Ədalət oğlu Ələkbərov 10 fevral 1965-ci ildə Neftçala rayonunda anadan olmuşdur. İlk təhsilini Neftçala rayon 1 saylı orta məktəbində alan Əliyar Ələkbərov uşaqlıq illərində ailəsi ilə bir yerdə bir müddət Monqolustanda, daha sonra Bakı şəhərində yaşamışdır. Təhsil illərinin son dövrünü Neftçala şəhər 1 saylı orta məktəbdə başa vurmuş, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft - Kimya institutuna daxil olmuşdur. Ali təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra hərbi xidmətə getmiş, iki il Krımda xidmət etmişdir. Vətənə qayıtdıqdan bir müddət sonra Qarabağda baş verən hadisələrə biganə qala bilməyən Əliyar Ələkbərov könüllü olaraq orduya yazılır. 1993-cü ilin oktyabr ayının 29-da cəbhəyə yola düşür. Leytenant Əliyar Ələkbərov döyüşlərdə "N" saylı hərbi hissənin 1-ci motoatıcı briqadanın motoatıcı alayının komandiri kimi fəaliyyət göstərir, döyüşür. Bu döyüşlərdə ağır sınaqlar qarşısında qalan Əliyar Ələkbərov 1994-cü il 15 fevral tarixində verilən məlumata əsasən Murovdağ istiqamətində şəhid olur.

Uzun müddət itkin şəhid kimi axtarılan Əliyar Ələkbərovun nəşi 2024 - cü ildə araşdırma nəticəsində müəyyənləşdirilir və ailəsinə tapılması haqqında məlumat verilir. 21 may 2024-cü il tarixində Nizami Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid Əliyar Ədalət oğlu Ələkbərovla ailəsinin yaşadığı Keşlə qəsəbəsində vida mərasimi keçirilir.Vida mərasimindən sonra şəhid Keşlə Şəhidlər Xiyabanında Müdafiə Nazirliyinin təşkilatçılığı ilə yaylım atəşi və orkestrın ifasında Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin ruhuna dualar oxunub, məzarına güllər düzülüb, əklillər qoyulub. Daha sonra mərasim evində ehsan süfrəsi təşkil olunub.

Mərasimdə şəhidin ailə üzvləri ilə yanaşı Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, hüquq-mühafizə orqanlarının rəhbərləri, Müdafiə Nazirliyinin əməkdaşları, Nizami rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüş yoldaşları, rayon sakinləri, qazilər, media nümayəndələri iştirak ediblər.

***Nigaran gözlər, intizar könüllər daha uzaqlara deyil, Keşlə Şəhidlər Xiyabanında uyuyan bu Qəhrəman Vətən oğlunun ruhuna dua oxuyur.Onun dəfn mərasimində ona həsrət gözləri daim yollara baxan oğlu Ədalət və qızı Sara ilə birlikdə bir də onun ilk nəvəsi olan Zəhra da iştirak edirdi. Bu da bir tale nəsibidir... Daim oyaq olan Şəhid ömrü yəqin ki, bu an bütün doğmalarını, əzizlərini duyurdu...***

***Bu il şəhidimizin 60 yaşı tamam olur. Uca Allah bütün şəhid oğulları, eyni zamanda Vətəni, torpağı üçün canını, bütün istəklərini fəda edən Əliyar Ələkbərovun da məkanın behişt eləsin. Ömrünü həsr etdiyi Vətən yolu unudulmayacaqdır. Ruhu şad olsun.***

***B. Niftaliyeva***

## Qan yaddaşımızın səhifələrindən...

Tarix unutma deyir, öz xalqının tarixi daim öyrən və yaşat deyir. Ermənilər havadarlarının maddi və hərbi siyasi dəstəyi ilə XIX-XX əsrlərdə müəyyən mərhələlərlə azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırımlar törətmiş, deportasiyalar mərhələsi 1905-1906-cı illəri əhatə etmişdir.Tarixə ilk olaraq "erməni-müsəlman qırğınları" kimi düşən bu qanlı faciələri hüquqi-siyasi baxımdan azərbaycanlılara qarşı soyqırım adlandırmaq onun mahiyyətinə tam uyğun gəlir.

1905-ci il fevral ayının 6-da Bakıda bir nəfər azərbaycanlının erməni komitəçiləri tərəfindən öldürülməsi ilə başlanan erməni-müsəlman qırğınları bir çox müəlliflərin iddia etdikləri kimi bir təsadüf nəticəsi deyil, məhz bütün Cənubi Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olduqları bir şəhərdə planlı şəkildə baş vermişdir. Ermənilər Bakıda erməni milyonerlərin köməyilə ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Cənubi Qafqazdan müsəlmanları silah gücünə qovub erməni dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-a qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı hər iki tərəfdən təlafat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış, məğlub olmuşdurlar.1905-1906-cı illərdə Rusiyada baş verən ixtişaşlardan fursət kimi istifadə edən ermənilər Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda, Tiflisdə də dinc azərbaycanlılara qarşı qırğınlar törətmişlər. Erməni quldur, silahlı dəstələri İrəvan, Naxçıvan, Zəngəzur, Qarabağ, Qazax-Gəncə istiqamətlərində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırmaqla, qovmaqla və həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcək Ermənistan dövlətinin əsasını qoymaq istəyirdilər. Sayları on min silahlılardan çox olan bu dəstələr Bakı, İrəvan, onlara yaxın kəndlərdə, Şərur-Dərələyəz və Naxçıvan qəzalrında Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Gorus, Qafan, Qarakilsə nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Ərəş qəzalarında, Tiflis şəhərində kütləvi qırğınlar törətmişlər. Baş verən cinayətin geniş miqyasına baxmayaraq çar Rusiyası hökuməti tərəfindən bu cinayətlər gizlədilmişdir. Lakin zaman keçir, tarix dəyişir. Bu gün Azərbaycan əsrlərlə xalqımıza edilən zülm və zorakılıqlara qarşı bir yumruq kimi birləşərək öz tarıxinə ZƏFƏR yazdı. Minlərlə şəhid versək də, tarixi ədaləti bərpa edə bildik. Tarix isə heç zaman unudanları bağışlamır. Elə bu məqamda onu da qeyd etmək vacibdir ki, fevral ayının 17 - si həm də, 1992-ci ildə mənfur düşmən tərəfindən törədilən Qaradağlı faciəsinin anım günüdür. Bu kənddə 104 sakin, 14 əsgər sonuncu gülləsinə qədər düşmənlə mübarizə aparmışdır. Düşmənə qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il 17 fevral tarixində işğal edilərək yandırılmışdır. Kənddə "Bəylik bağı" deyilən yerdə 23 sakin erməni cəlladları tərəfindən güllələnmiş, əksəriyyəti silos quyusunda yaralı halda diri-diri basdırılmışdır. İşğal zamanı 118 nəfər əsir götürülmüş, 33 nəfər güllələnmiş, ümumilikdə əsir və girov götürülənlərdən 68 nəfər öldürülmüşdür. Həyata keçirilən bu cinayət nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 nəfər ailə başçısını itirib, 146 uşaq yetim qalıb. 200 yaşayış evi, 800 nəfərədək sakini olan kənd qəddarlıqla dağıdılıb.

**UNUTMADIQ...UNUTMARIQ!**

***"GÜNDOĞAR"***

## 2 FEVRAL - AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜ





Neftçala Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayon təhsil sektorunun təşkilatçılığı ilə "2 fevral – Azərbaycan Gəncləri Günü" münasibətilə Neftçala Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib.

Tədbirin əvvəlində Neftçala Olimpiya İdman Kompleksində müxtəlif idman növləri üzrə yeniyetmə və gənclərin nümunəvi çıxışları və onların sağlam həyat tərzinin, asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə qurulmuş idman alətlərində hərəkətləri izlənildi.

Yığıncaqda çıxış edən Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi Aydın Yusifov, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, Neftçala rayon Gənclər və idman sektorunun müdiri Araz Əhmədov, rayonun fəal gəncləri Anar Güllərli, Şəfəq Tağıyeva və Ramilə İmanlı Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində gənclərə göstərilən diqqət və qayğıdan, qəbul edilən sərəncam və fərmanlardan, gənclərin Ümummilli Liderin təşəbbüsü ilə keçirilən forumundan, Gənclər Gününün təsis olunmasından, əsası dahi şəxsiyyət tərəfindən qoyulan gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, cəmiyyətimizin inkişafında gənclərin rolundan danışıb, onlara uğurlar arzulayıblar.

Tədbirdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov hər zaman Azərbaycan gəncliyini gələcəyimizin davamçıları kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyev tərəfindən təsis edilmiş "2 Fevral Azərbaycan Gəncləri Günü"nün hər il ölkəmizdə böyük coşqu ilə qeyd ediməsini gənclərə göstərilən diqqət və qayğının bariz nümunə olduğunu qeyd edərək, dövlət gənclər siyasətinin bu gün də uğurla həyata keçirilməsindən bəhs edib. Rayon İcra Hakimiyyətinin başçısı bildirdi ki, müasir gənclik ölkə başçısının müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişafına öz töhfəsini verməyə çalışır və Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün ölkəmizdə vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənc nəsil yetişir. Məhz dövlətimizin gənclərə dəstəyi nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb və bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır. Neftçala Rayon İcra Hakimiyyətinin başçısı ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin həyata keçirilməsində Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi xidmətlərini qeyd edərək, rayonumuzda da bu sahədə əldə olunan uğurlara toxunub, Gənclər günü münasibəti ilə gəncləri təbrik edib və onlara uğurlar arzulayıb.

Tədbirdə gənclər sahəsində fərqlənən və uğurlar əldə edən bir qrup gəncə Fəxri Fərman təqdim edilib.

# FEVRAL AYINDA YUBİLEYİ OLAN ŞƏHİD OĞULLAR



UNUTMA!

Fədakar ömür yolu unudulmayan, fevral ayında 60 yaşı tamam olan şəhid Abdullayev Məmmədağa İslam oğlu 20 fevral 1965-ci ildə Neftçala rayonu Qazaxbərə kəndində anadan olmuşdur. 17 yanvar 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.
Ruhu şad olsun.



UNUTMA!

Vətənsevər, qorxmaz, fevral ayında 50 yaşı tamam olan şəhid Abbasov Ramazan Tapdıq oğlu 24 fevral 1975 - ci ildə Neftçala rayonu Qaraqaşlı kəndində anadan olmuşdur. Qarabağ uğrunda döyüşlərdə 23 yanvar 1994-cü ildə qəhrəmanlıqla şəhid olmuşdur.
Ruhu şad olsun.



UNUTMA!

Vətən tarixində ucalan, fevral ayında 50 yaşı tamam olan şəhid Babayev Ceyhun Əlisəfa oğlu 16 fevral 1975-ci ildə Neftçala rayon Qacaqkənd kəndində anadan olmuşdur. Nəsibdən şəhid Ceyhun Babayev doğulduğu gündə də Qarabağ uğrunda döyüşlərdə 16 fevral 1994-cü ildə şəhid olmuşdur.
Ruhu şad olsun.

# GƏNCLİK NURLU SƏHƏRDİR!

Hörmətli oxucular, mən bir veteran müəllim kimi müasir gənclərimiz haqqında öz subyektiv fikirlərimi açıqlamaq istəyirəm. Yaxşı olar ki, biz sevimli qəzetimiz olan "Gündoğar"da bu haqda bir rubrika açaq. Qoy hər kəs öz şəxsi münasibətini bildirsin.

Mən bu kiçik qəzet məqaləmdə 1960-1990 - cı illərin gəncləri ilə müasir gənclərin bəzi sahələrdə fərqli cəhətlərini müqayisə edəcəyəm. Bu yazımda iki böyük alimin kəlamlarından istifadə edəcəyəm. Birinci: Əli Əbutalib deyir ki, "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". İkinci: Böyük Nizami Gəncəvi qocalığı qərib bir axşama, gəncliyi isə nurlu səhərə bənzədir. Demək istərdim ki, hər iki kəlamda böyük hikmət vardır. Mən özüm də yarım əsr müəllim işləmişəm. Həmişə gənclərlə təmasda olmuşam. Bu günümüzdə də dövlət gənclərə arxalanmış, onlara geniş meydan vermişdir. İstər ötən əsrdə, istərsə də bu günümüzdə gənclər öndə olmuş, bu gün də öndədirlər. Onlar həmişə yeniliklər axtarır, hətta müəyyən sahələrdə belə ixtiralar edirlər. Dünyanın müxtəlif ölkələrində Azərbaycan gəncləri elm, təsildə qazandıqları uğurlarla fərqlənirlər. Gənclərimiz çox sahələrdə irəliləyiblər. Çox təəssüf ki, nöqsanlarımız da var. Əlbəttə ki, bu nöqsanları bütün gənclərə şamil etmək olmaz. Məsələn: metroda, avtobusda özündən böyüklərə yer göstərmək, və yaxud yeməkxanada, çayxanada, bazar, alqı-satqı, ictimai yerlərdə özlərini yaxşı aparmamaq amilləri müşahidə olunur. Əlbəttə, belə halların olmasının günahkarı biz valideynlərik. Tərbiyənin ilk beşiyi ailədir. Bu gün hər bir ailə bu mövzuda daha diqqətli olmalıdır, məsuliyyətini vacib bilməlidir.

Əziz oxucular, gənclik nurlu səhərdir. Onu göz bəbəyi kimi qorumalıyıq. Onlar bütün zamanlarda xalqın sabahı, ümidi olublar. Mən çəkinmədən deyə bilərəm ki, bizim Azərbaycan gəncləri dünya gəncləri ilə müqayisədə birincilər sırasındadır. Buna misal olaraq son illərdə Zəfər qazandığımız Vətən müharibəsini qeyd etmək istərdim. Qəhrəman, mərd gənclərimiz vətən, torpaq, namus uğrunda mübarizəyə qalxdılar və az müddətdə də erməni faşizminə qalib gəldilər. Bütün dünya ölkələri bizim gənclərin qəhrəmanlığına valeh oldu. Artıq dünya ölkələrində Azərbaycanın mübarizə tarixi öyrənilir, araşdırılır. Bu qələbə Azərbaycanın ən parlaq qələbəsi idi ki, burada gənclər fədakarlıqla vuruşurdular.



Tarixə nəzər salsaq görərik ki, bizim gənclər - həm oğlanlar, həm də qızlar düşmənə qarşı necə əyilməz olmuşlar. Biz belə gənclərimizlə hər zaman fəxr etmişik. Gələcəkdə də onların cəsur, mərd sorağı daim yaşayacaq. Bizim tariximizdə Sara xatun, Nigar, Həcər kimi kişi qeyrətli qadınlarımız olub, bu gün də var. İstər Böyük Vətən müharibəsində, istər I Qarabağ döyüşlərində, istərsə də 2020-ci ilin Vətən müharibəsində, müharibədən sonra davam edən antiterror tədbirlərində Azərbaycan gənclərinin vətənsevərliyi örnək, nümunə olmuşdur. Onların göstərdikləri şücaətlər gözlərimiz önündədir. Biz gəncliyi daim belə görmək istəyirik. Mübariz, qeyrətli, vətənsevər, əməksevər, vicdan və ləyaqəti ilə seçilən.

Yaşasın, var olsun, hər zaman ucalsın Azərbaycan gəncləri!

**İDRİS ABASOV,**
**veteran müəllim, şəhid babası**

# ÖMRÜN BİR GÜNÜ – TƏBRİK EDİRİK!




**Meftçala RMX PHŞ-in TT stansiyasının feldşeri, I Qarabağ müharibəsi veteranı Fəridə Fərman qızı Ağayevanın 65-illik yubileyi RMX-nın tədbirlər zalında 17 sentyabr 2024 - cü ildə baş tutdu.**

**Tədbirə toplaşan xəstəxana işçiləri tarixin bu günündə daha çox yaddaqalan sevinc anları yaşadılar. Tədbirdə Neftçala RMX PHŞ-in direktoru, çox hörmətli Elman Quliyev yubilyarın səhiyyə sistemindəki səmərəli fəaliyyətindən söz açdı. Onun daim həkim-Hippokrat andına sədaqətinin çoxçalarlı nümunələrini vurğulamaqla tibb işçisi kimi insani keyfiyyətlərini də geniş qeyd etdi.**



**Neftçala rayon SİHİ Şurasının - nin sədri Nəcibə Abdullayeva da yubilyarın əmək fəaliyyəti ilə bağlı, kollektiv arasında səmimiyyətindən danışaraq iş prosesində xəstələrə yanaşma tərzinin etik mədəni çalarlarını, təməsda olduğu xəstələrə səmimiyyətinin incə məqamlarına da toxundu. Yubiley tədbirində "ACİL"in şöbə müdiri Füzuli Mehdiyev də öz sözləri ilə "Müharibə illərinin tibb bacısı kimi" yubilyarın ömür dolaylarından boylanan izi qalan illərinin görüntülərini xatırlamaqla məclisə bir daha xoş ovqat və şirinlik bəxş etdi. Təbrik edənlər arasında yubilyarın iş yoldaşlarından təcili yardımın şöbə müdiri Bayram Bayramovun, həkimlərdən Anar Əsgərovun, Pərviz Hüseynovun, həkim – uroloq Elxan Quliyevin səmimi sözləri də alqışlarla qarşılandı. Xoş ovqatla təbriklərə qoşulan təcili yardımın feldşeri Fəridə Ələkbərovanın, Aidə Naxışovanın, Bayram Tahirovun ürəkaçan sözləri tədbirə yeni rəng qatdı, qəlbləri sevindirdi. Təcili yardımın sürücüləri Samir Əhmədovun, Pərviz Məmmədovun, şəhid atası Hüseyn Bayramovun təbrikləri də xoş ovqat yaratdı. Tədbirin sonunda yubilyara xəstəxana rəhbərliyi tərəfindən Fəxri Fərman, müxtəlif hədiyyələr və Bilgəh kardioloji müalicə və istirahət sanatoriyasının putyovkası təqdim edildi. Tarixin bir günündə xəstəxana həyatında keçirilən bu tədbir xoş xatirələrlə yaddaşlara hopmaqla ömrün bir gününü daha da rövnəqləndirdi.**

**Ağalar AĞAYEV, Bankə qəsəbə sakini, təqaüdçü müəllim**

# BƏLƏDİYYƏLƏR YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Mövzumuzun hədəf nöqtəsi:- ölkəmizdə bələdiyyələr yerli özünüidarəetmə orqanıdır. Bələdiyyələr dövlət büdcəsindən maliyyələşən bir qurumdur. Bu qəbildən tarixin zaman və məkan kəsiyindən dönüb geriyə baxaq: Ölkəmizdə bələdiyyə qurumuna ilk seçkilər 1999-cu ilin 12 dekabr tarixində tariximizə qovuşub. Hər beş ildən bir seçki marafonuna istinad etsək, 29 yanvar 2025-ci ilin bələdiyyə seçkiləri ölkəmizdə bələdiyyələrlə bağlı keçirilən altıncı seçkidir. Bu haqda onu da qeyd edək ki, “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” 25 noyabr 2024-cü il tarixli Qanuna əsasən respublika miqyasında bələdiyyə seçkiləinin keçirilməsinin hazırlıq işlərinə start verildi. Bu seçkilər 29 yanvar 2025 - ci ildə uğurla nəticələndi.

Bu gün artıq respublika ictimaiyyəti dövlətimizin bu möhtəşəm siyasi kompaniyasının real görüntülərindən qürur duyur, fəxarət hissi keçirirlər . Respublikamızın bütün bölgələrində olduğu kimi günü-gündən çiçəklənən bərəkətli Neftçalamızda da bələdiyyə seçkiləri yüksək səviyyədə baş tutub. Odur ki, mövzu dairəsində aldığımız məlumatlar əsasında deyə bilərik ki, MSK sədri Məzahir Pənahov seçkilərin nəticələri haqqında fikirlərini bildirərkən qeyd etmişdir ki, “Seçkilərin nəticələrinə təsir edəcək heç bir hal baş verməyib. Bu qəbildən bələdiyyə seçkiləri ilə bağlı ardıcıllığı izləyək.

Seçkilərin nəticələri elan edildən üç saat sonra lider namizədlərin siyahısı və topladığı səslər MSK-nın internet səhifəsində yerləşdirilib. Odur ki, istərdim ki, lider səs toplayan bələdiyyə namizədlərimizi tanıyaq:

***Aşağı Surra - Tağıyev Vidadi Təvəkkül oğlu - 410 səs,***
***Həsənabad qəsəbə - Əzizov Əziz Etibar oğlu - 675,***
***Neftçala şəhər-Nağıyev Samir Beydulla oğlu - 3249,***
***Qədimkənd -Tarverdiyev Aydın Ələddin oğlu - 804 səs,***
***Xıllı qəsəbə - Həmzəyeva Sevinc Zakir qızı - 675 səs,***
***Xolqarabucaq-Muradov Fətulla Mamed oğlu - 523 səs,***
***Xolqaraqaşlı-İmanov Niftulla İbrahim oğlu - 890 səs.***

Çoxsaylı oxucularımızın arzu və maraqlarına uyğun onu da vurğulamağı lazım bilərdim ki, lider namizədlərin ikinci etapında Neftçala bələdiyyəsi üzrə Nağıyev İmamnəzər Həmid oğlu - 2761 səs, Neftçala bələdiyyəsindən olan Səfərov Ramil Natiq oğlu, Xantemirov Sarı Böyükağa oğlu, Səfərova Gülmirə Çinqız qızı, Zeynalov Mustafa Azər oğlu, Hümbətova Şüşəxanım Babək qızı, Sərdarzadə Jalə Hüseynağa qızı da sevindirici səs çoxluğu ilə bu seçkilərin yekun mərhələsində fərqləniblər.

Mövzuya uyğun olaraq bir də qeyd etmək yerinə düşərdi ki, ölkə Prezidentinin müvafiq sərəncamı ilə **“2025-ci il Konstitusiya və Suverenlik ili”** kimi tarixə düşüb. Ölkəmizdə “Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi” ilə bağlı 2025-2030 - cu illər üzrə “Dövlət Proqramı” təsdiqlənib. İftixar hissi ilə onu da qeyd edək ki, bu istiqamətdə rayonumuzda da nəqliyyat infrastrukturu yenilənəcək. Habelə bununla bağlı rayonumuzda bələdiyyələrin inteqrasiyasında innovativ inkişaf xoş duyğularla daim duyulacaqdır. Şəhid ailələrinin sosial problemlərinin həllində, müharibə veteranlarının və qazilərin işlə bağlı təminatında bələdiyyə qrumlarının köməyi və dəstəyi qəlboxşayan faktlardan olacaqdır. Bu istiqamətdə sakinlərimizin sosial-məişət proplemlərinin həlli də bələdiyyələrin iş mexanizmində əsas diqqətdə olacaqdır. Elə bu fəaliyyət bu günə qədər görülmüş işlərin geniş davamı olacaq desək daha doğru olar. Xüsusi vurğulamaq yerinə düşər ki, vətəndaşların işıq, qaz, su təchizatı, bu sahədə olan çətinliklər hər zaman Neftçala rayon İcra Hakimiyyəti Aparatının gündəmində olan prioritet məsələ olmuşdur, zamanla çox istiqamətdə həllini tapmış və yenə də davam etməkdədir. Bu istiqamətdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı tərəfindən müntəzəm keçirilən səyyar görüşlər də xeyli əhəmiyyətlidir. 2024-cü ildə rayonumuzda bütün istiqamətlərdə yaşıllaşdırma işləri həyata keçirilib. “Yaşıl dünya uğrunda” devizi ilə ölkəmizin bütün bölgələrində olduğu kimi bərəkətli rayonumuzda da öz layiqli həllini tapıb. Çox aydındır ki, rayonumuzda bu sağlam atmosferin yaradılması digər təşkilatlarla yanaşı bələdiyyələrin də diqqətində olub. Bu uğurların əsas mayasında –Rayon İcra Hakimiyyət Aparatının sağlam düşüncəsi dayanır” – desək, əlbəttə ki, yanılmarıq.

***İndi də qayıdaq günümüzün aktual gündəminə :- seçki gününün möhtəşəm təəssüratına...***

70 saylı Neftçala DSK-nın sədri Ülvi Nəhmədzadə : ***“Rayonumuzun 48 seçki məntəqəsində 169 bələdiyyə namizədinin səs toplaması işi dairədə “Seçki Qanunları Məcəlləsi”nə müvafiq MSK-nın Bələdiyyə seçkilərinin təlimat və izahlarına istinad edilməklə maneəsiz şəkildə real nəticələrlə tamamlandı”.***

Dairənin sədr müavini Babək Mənəfov: ***“Bu seçkilərdə lider səs namizədləri arasında gənclərin də üstünlüyü zəmanəmizdə əlamətdar hadisədir...”***

Dairə katibi Ələkbər Zahidov: ***“Seçki marafonuna start verilən gündən məntəqələrlə əlbir işimiz qələbəmizin real nəticəsi kimi səciyyələndirilməlidir”.***

Bu xoş sözlər seçki dairəsinin məslələtçilərindən İlkin Qafarovun, Hüseynli İradənin, habelə qrumun aparıcı mütəxəssislərindən olan Emin müəllimin də ürəyincə oldu. Bu qəbildən onu da vurğulamağı lazım bilərdim ki, məntəqəmizdə səs verən şəhid anası Sitarə Mustafayevanın, Balabacı Səfərovanın, habelə şəhid Cəlil Cavadovun doğması Şəhla Cavadovanın, müşahidəçi Zaman Nağıyevin, yüzbaşılardan Tahir Dadaşovun, Məmmədağa Səfərovun, Zaman Əliyevin, Lazım Babayevin səsvermə zamanı dövlətimizin və dövlətçiliyimizin, ölkə Prezidentimizin ünvanına söylədikləri inkişafla bağlı ifadələr hər zaman olduğu kimi bu gün də səmimiyyəti ilə xoş ovqat yaratdı.

İştirakçısı olduğum məntəqəmizdə bələdiyyə seçkilərinin yüksək səviyyədə həyata keçməsində Yenikənd İƏDN-nin nümayəndəsi Şəhriyar Ələkbərovun, nümayəndəliyin əməkdaşlarından Fazil Abdullayevin, Anar Mahmudovun, Neftçala Rayon İcra



Hakimiyyəti Aparatının əməkdaşlarından Elşad Əzizovun, Burcalı Ağayevin, Vasif Əliyevin və bütün əməkdaşlardan öndə deyərdim ki, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı çox hörmətli Mirhəsən Seyidovun seçki təşviqatı ilə bağlı uğurlu fəaliyyətləri, sakinlərlə doğma münasibəti xüsusi vurğulanmalıdır.

Ölkəmizin inkişafı hər bir bölgəmizin inkişafı ilə paralel olaraq davam edir. Bu mənada “COP-29” - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilməsi də 2024-cü ilin mühüm hadisələrindən oldu. Azərbaycanın bu konfransa ev sahibliyi etməsi ölkəmizin gücünü və siyasi qüdrətinin göstəricisi kimi qiymətləndirilməlidir. Bu istiqamətdə bütün dünyada iqlim dəyişkənliyi ilə ələqədar möhtəşəm layihələrin icrasına start verilib. Doğma rayonumuzda da tikintisi planlaşdırılan “Yaşıl enerji” elektrik stansiyası qurğusu təbii günəş və külək enerjisini elektrik enerjisinə çevirən nəhəng enerji bazası olacaqdır. Bu istiqamətdə yeni seçilən bütün bələdiyyə sədrlərini öz işlərində daha məsuliyyətli olmaqla ölkə Prezidentinin ətrafında xalqla daha sıx birləşməyi, yumruq kimi bir olmağı arzulayıram.

**Ağalar AĞAYEV,**
**YAP-nın üzvü, 28 saylı Seçki məntəqəsinin sədri, təqaüdçü müəllim.**

---

*21 fevral-Beynəlxalq Ana Dili Günüdür!*

## POEZİYA SEVƏNLƏR ÜÇÜN

**İMAMVERDİ ÖLMƏZ**



**Dünya bir sevgidir**

**Açılan səhərin gecəsi gəlməz**
**Mən ki, duaçıyam gecələr sənə.**
**Susar ürəklər də, bəs niyə dinməz?**
**Dönərik səhərə, biz dinək yenə.**

**Bu səba yelidir küləklər əsər,**
**Titrədər səmanı tufan gecəsi.**
**Günəş də səmadan baxar, tələsər,**
**Düşər uzaqlara bülbül nəğməsi.**

**Dağılan buludlar uçar durna tək,**
**O qızın gözləri bulağa düşüb.**
**Dağlarda, düzlərdə əsdikcə külək**
**Gələn sədaları dodağa düşüb.**

**Gecənin, gündüzün sirri açılmaz,**
**Qonubdur quşlar da budaqlar üstə.**
**Nəhəng qartalları geriyə dönməz,**
**Uca, xan çinardan bir yarpaq istər.**

**Harda məskən salıb, harda qalmışıq,**
**Laməkan ömrümüz özü səyahət.**
**Biz gecə qoynunda fikrə dalmışıq,**
**Dünya bir sevgidir, cahan məhəbbət.**

**Bülbül nəğməsi**

**Sağsağan oxudu, şaqqanaq çaldı,**
**Bağırdı, səs-küyü yayıldı elə.**
**O öz səsindən ilham da aldı,**
**Bircə mahnısı da düşmədi dilə.**

**Quşlar qanad çalıb uçub getdilər**
**O isə qürurla heç dayanmadı.**
**Necə uca imiş yazdığı əsər -**
**Barı həya edib bir utanmadı.**

**Bülbül də başladı təzə nəğməsin,**
**Quşlar cövlan edib geri döndülər.**
**Dinləyib həsrətlə alovlu səsin,**
**Uca budaqlardan yerə endilər.**

**Sağsağan tər töküb xəcalət çəkdi,**
**Tərk edib obanı köçdü uzağa.**
**Bülbüllər nəğmədə dünyada təkdir,**
**Onlar bəzək olub bağçaya, bağa.**

**Həyatımız bir nağıl**

**Həyatımız bir nağıl, ömrümüz nağıl,**
**Dünya başdan-başa bir rəvayətdir.**
**Müsafir yolunu haradan salır,**
**Bizim varlığımız düz həqiqətdir.**

**Sən necə yaşadın, söylə mən necə,**
**Sürətli qartaldır illərin yaşı.**
**Günümüz, ayımız sehirli gecə,**
**Ağartdı zəmanə kirpiyi, qaşı.**

**Mülkün məsuliyyəti altuna bəlli,**
**Tikirlər, qururlar bu sarayları.**
**Nədir bu dünyada bizə təsəlli**
**Yağar üstümüzə o sinə qarı.**

**Qur, yarat, de, varmı hər şeyin sonu,**
**Çalışan abidələr düşməyir yada.**
**Necə mənalıdır ömrün hər anı,**
**Bəlkə də illəri vermişik bada.**

**Aqilsən, nadansan düzü bilmədim,**
**Bir cahil həyatı yaşamaq aman.**
**Susaraq çox zaman niyə dinmədin-**
**Fikirlər düşüncə, bir də ki güman,**
**Bununçün yaşayıb, yaradıb insan.**

---

## MÜDRİKLƏRDƏN NƏSİHƏT

***“Aldadan aldanar”.***
**(Cəlaləddin Rumi)**

***“Amal yüksək olduqca insan da yüksəlir”.***
**(Fridrix Şiller)**

***“Başqalarından yox, daha çox özündən utanmağı öyrən”.***
**(Demokrit)**

***“Birisi bəslərdi qurd balasını Böyücək məhv etdi öz ağasını”.***
**(Sədi Şirazi)**

***“Bitməyən bir kitab ol!”***
**(Əbu Turxan)**

***“Din və əxlaq inama əsaslanmaqla vasitəsiz bilik olsalar da, hər halda yenə də tərbiyə və təhsillə vasitələnirlər”.***
**(Georq Vilhelm Fridrix Hegel)**

***“İki işığın təmasından daha böyük işıq da yarana bilər, qaranlıq da”.***
**(Əbu Turxan)**

***“İnsanın mənəvi dünyası əslində dünyadakı mənaların dünyasıdır”.***
**(Əbu Turxan)**

***“Pis fikirlərin olmasa, pis əməllərin də olmaz”.***
**(Konfutsi)**

GÜNDOĞAR

# ANA DİLİMİZİ SEVƏK VƏ QORUYAQ!




Ana dilimiz haqqında çox danışılıb, çox da yazılıb. Bizi biz edən, tanıdan kimliyimiz, millətlər, xalqlar içində fərqli cəhətimiz, əlamətimiz, birliyimiz, andımız-bir sözlə, varlığımızın nişanəsidir desək də, tam olaraq sevgimizi sanki ifadə edə bilmədiyimiz üçün, daha çox tərənnüm etmək istəyi ilə ifadələr gəzir, çeşmələr arayırıq. Hər birimiz beləyikmi? Əlbəttə ki, xeyr, mümkün də deyil. Hər bir insanın həyatda öz seçimi, öz yolu, öz inancı olduğu üçün dilimizə münasibət də insanlar içində, cəmiyyətimizdə fərqlidir. Lakin andını Vətən bilən, ocağının ətrini duya bilən insan, yəqin ki, öz ana dilini də sevəcək, onun qorunması, inkişaf və tərəqqisi, yad ünsürlərdən qorunması üçün səy və bacarığını əsirgəməyəcəkdir. 21 fevral təqvimdə Beynəlxalq Ana Dili Günü kimi qeyd edildiyindən bu mövzuda xidmətləri olan maarifçilərimizi xatırlamaq da yerinə düşər- deyərək, bir qədər ötənlərə qayıtmaq istədik. Ruhu şad olsun Nizaminin, Nəsiminin, Füzulinin, Mirzə Cəlilin, B. Vahabzadənin, Sabirin, Z. Yaqubun adlarını qeyd edə bilmədiyim nə qədər müqəddəs amallı müəllimlərimizin, sözə, yurda dəyər verən alimlərimizin, qəhrəmanlarımızın. Dilimizin keşiyində dayananlar, xalqın aydınları, işığın önəmini duyuranlar bu günkü cəmiyyətimizdə bunun nə qədər vacib olduğunu da düşünüblərmi, bilmirəm, amma zaman nə qədər inkişaf edirsə etsin, hər zamanın öz mübarizə istiqamətləri yəqin ki, vardır və olması da labüddür. İnkişaf edən dünyanın aynasında öz ana dilini həm qoruyub, həm də inkişaf etdirə bilən xalq, şübhəsiz ki, varlığının mübarizi olan bir xalqdır. Biz xalqımızın varlığı ilə fəxr edirik. Onun yolunda can fəda edənlərin amalından baxırıq dilimizə, torpağımıza, sabahımıza. Bizi biz edən şərtlərin bizə qədər qorunduğunu unutmayaraq, biz də öz növbəmizdə bu istiqamətdə bütün mümkün amilləri nəzərə alaraq, çox dili öyrənmək istəyi ilə irəliləyərkən öz ana dilimizi də daim təbliğ etməli, dünya xalqlarına şəraitdən asılı olaraq sevdirməli və daim qorumalıyıq. Bu yol söz mülkündə xidmətləri ilə unudumayan hər bir ustadımızın da, aqilmizin də ruhunu şad edər.

***B. Niftaliyeva***

# ƏHƏMİYYƏTLİ XİDMƏTLƏR...



Neftçala rayonunda qeyri-rəsmi məşğulluğun aşkar edilməsi və qarşısının alınması sahəsində nəzarət tədbirlərinin gücləndirilməsi, bu istiqamətdə, habelə qeydiyyatlı məşğulluğun üstünlükləri barədə geniş əhali arasında maarifləndirmə işlərinin aparılması və qeydiyyatdan yayınma hallarının daha çox rast gəlinən iqtisadiyyat sahələrində fəaliyyət göstərən subyektlərdə qeyri-rəsmi məşğulluğun aradan qaldırılması məqsədilə təbliğat və təşviqat kampaniyalarının təşkil edilməsi məsələləri müzakirə edilib.

Bu məqsədlə Neftçala Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən məşğulluğa kömək göstərən əlaqələndirmə komitəsinin 2025-ci il fevralın 6-da, Neftçala Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq Filialı ilə birgə təşkilatçılığı ilə rayon ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektlərində, müəssisə və təşkilatlarda işəgötürənlərin nümayəndələrinin iştirakı ilə **"İşəgötürənlərə dəstək istiqamətli xidmətlərin təqdimatı"** mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Neftçala Rayonu İcra Hakimiyyəti başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Burcalı Ağayev və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq Filialının müdir müavini Vüsal Əhmədov mövzu haqqında ətraflı məlumat veriblər. Dəyirmi masa ətrafında peşə hazırlığı, əmək haqqının maliyyələşdirilməsi, əmək münasibətləri və məşğulluğa dair qanunvericilikdə olan vacib məsələlər müzakirə edilib. Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq Filialının məsul şəxsləri işəgötürənlərə məlumat verərək, bəzi məqamlara aydınlıq gətiriblər.

Görüşdə təkliflər dinlənilib və çıxış edənlər mövzunun aktuallığı barədə bir sıra vacib məsələləri diqqətə çatdırıblar.

**Yurdumuza bahar gəlir. Baharın gəlişinin ilk səsi, sorağı elə fevral ayından başlayan çərşənbə ilə sevilir. Bu çərşənbə isə bir başqa bərəkətlə gəldi. Fevral ayının 23-dən yağan qar ilk çərşənbəmizin - 25 fevralda su çərşənbəsinin özünəməxsus gözəlliyini artırmış oldu. Böyüklü-kiçikli bu yollarda isə ən çox sevinən əlbəttə ki, uşaqlar idi. Əziz oxucular, hər birinizin evinə, ocağına xoş günlər, bol ruzili, bərəkətli, firavan, sağlam həyat diləyirik. Qoy vətənimizin səması hər zaman qar bəyazlığı qədər aydın olsun. Bütün xalqımız xoşbəxt yaşasın.**

**"GÜNDOĞAR"**



**Novruz bayramının əsas atributlarından olan çərşənbələrin ilki - Su çərşənbəsidir. 2025-ci ildə su çərşənbəsi fevral ayının 25 –nə təsadüf etmişdir. Bu gün sanki təbiət hər tərəfdə ağ örtüyü ilə insanları salamlayır. Ayın 23 – dən yağan qar hələ də göz oxşayır, bəzi yerlərdə isə çərşənbəni xatırladaraq yol ətrafında bolluca su yaratmışdır. Çərşənbə "çəhar şənbə" sözlərindəndir və hərfi tərcüməsi "dörd şənbə" deməkdir. Novruz bayramına bir ay qalmış qeyd olunan 4 ilaxır çərşənbədən birincisinə "birinci çərşənbə", "yalançı çərşənbə", "əzəl çərşənbə", "su çərşənbəsi", ikincisinə "ikinci çərşənbə", "xəbərçi çərşənbə", "üskü çərşənbə", "od çərşənbəsi" üçüncüsünə "üçüncü çərşənbə", "ölü çərşənbə" (məzar ziyarətinə görə), "yel çərşənbəsi", dördüncüsünə "axır çərşənbə", "ilaxır çərşənbə", "torpaq çərşənbəsi" və s. deyilir. Şənbənin altıncı gün olduğunu bilirik. Bu da dünyanın altı gündə yaradıldığı və ən sonda insanın yaradılması haqqında dini bilgilərlə əlaqəli görünür. Dünyanın altı gündə yaradılması "şənbə"ni, dünyanı yaradan dörd ünsürün – suyun, odun, havanın və torpağın da "şənbəlik" həftə sistemində yaradılması "çərşənbə"ni (dörd şənbə) müqəddəsləşdirir. İstər ilkin kosmoqoniya, istər xalq təqvimi, istərsə də dini bilgi kimi bu fikir özünü doğruldur.**

**Qədim etiqadlara görə, son ayın hər həftəsində bu ünsürdən biri canlanır, oyanır, yaşamağa başlayır. Bunların hamısının dirilməsi, qızması, yeni keyfiyyət kəsb etməsi ilə də ümumiyyətlə, təbiət oyanır, qış qurtarır, yaz başlanır.**

**İlaxır çərşənbələrin birincisi su çərşənbəsidir. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Xalq arasında Su Çərşənbəsi "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu", "gül çərşənbə" kimi də tanınır.**

**Əzəli inamlardan bəri su sağlamlığın mənbəyidir. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, evə sərin, şirin su gətirilir, evin ətrafına çilənir, hər kəs əl-üzünü yuyur, su ilə bağlı müxtəlif şənliklər keçirirlər.**

**Su çərşənbəsi suya tapınma inamı ilə də bağlıdır. Qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması inamı türk mifoloji mətnlərinin əsasını təşkil edir. "Su çərşənbəsi günü axar sudan keçənlər azar-bezardan xilas olar" da deyirlər.**

**Xalqın inamına görə, Su Çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar.**

**Su çərşənbəsi ilə əlaqədar çox sayda inanclar, sınamalar, atalar sözləri, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var.**

**Su ilə bağlı sınamalar:**

**İlk çərşənbədən başlayaraq qonşuya axşamcağı ələk, maya, od verilməz. Zərurət olanda istəyə gələnin başından örpəyini götürüb sonra verərdilər. Çərşənbədə evə süpürgə çəkmək olmaz.**

**Su ilə bağlı inanclar:**

**Süfrəyə su dağılması aydınlıqdır.**
**Su içən adamı qəfil vurmazlar.**
**Su içən adamı danışdırmazlar.**
**Lal axan sudan keçməzlər.**
**Yuxuda su görmək aydınlıqdır.**
**Səfərə çıxan adamın arxasınca su atarlar.**
**Odu su ilə söndürmək günahdır...**
**Ömrünüz, gününüz aydınlıq, çərşənbəniz mübarək olsun!**



**Baş redaktor**
B.H. NİFTALİYEVA

Ünvan:Neftçala şəhəri, H. Əliyev prospekti 38
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

*"Quyuya salsan da yaxşılığı bil
Yenə qayıdacaq, o itən deyil!"
Nizami Gəncəvi*

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250